www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-7 iyun 2015-ci il Şənbə № 122 (6150) Qiymıəti 40 qəpik

**Xəbər**

## Bakıda dəhşət: ana iki uşağını öldürdü

yazısı səh.15-də

**Gündəm**

### Qarabağ erməniləri Azərbaycandan icazə gözləyir



**Xocalı aeroportu ilə bağlı separatçı qurumun "idarə rəisi"ndən acı etiraf:** "Bakı xoş məram göstərsə... Bizim heç İrəvana uçmaq hüququmuz da yoxdur"...

yazısı səh.13-də

### "Saxta vəsiqə" qalmaqalında yeni adlar, yeni ittihamlar...

yazısı səh.3-də

### AXCP daxilində narazılıq artır

yazısı səh.10-da

### 125-lərin sədr müavini ölkə prezidentinə müraciət etdi

yazısı səh.3-də

### Bakı beynəlxalq birliyin hücumları qarşılığında nə edəcək?

yazısı səh.8-də

### "Diplomat qiyamı"nın pərdəarxası

yazısı səh.9-da

### Ölümün cəzası - ölümmü - İslam nə deyir?

yazısı səh.6-da

### "Şərurlu İsfəndiyar" 17 milyonluq ticarət mərkəzini satışa çıxardı

yazısı səh.2-də

### Donetskdə azərbaycanlı biznesmen öldürüldü

yazısı səh.14-də

### 30 ilin müəllimləri dindar övladlarına görə işdən qovuldu

yazısı səh.2-də

### Rəsmi Paris Bakının notasını cavablandırdı

yazısı səh.13-də

### Azərbaycanlı neftçilərlə xarici şirkətin pul davası...

yazısı səh.14-də

## Hakimiyyət ciddi dəyişikliklər ərəfəsindədir

# PREZİDENTİN İSLAHATLAR PLANI: YENİ KOMANDA, YENİ PARLAMENT...

Daha rasional iqtisadi komanda "neft iyinə bulaşmamış" kadrlara həvalə ediləcək; yeni iqtisadi-siyasi gerçəklik öncə idarəetmədə və ictimai nəzarət funksiyasını yerinə yetirən parlamentdə də ciddi dəyişikliklər tələb edir



yazısı səh.5-də

# Bakıdan Qərbə yeni təxribat ittihamı

Avropa Birliyinin Bakı ofisinin və Yunanıstanın Azərbaycandakı səfirinin ölkəmiz əleyhinə işbirliyinin ortaya çıxdığı deyilir; Avropa Oyunlarına sayılı günlər qalmış Brüssel niyə hədəfə gətirilir?

yazısı səh.11-də



### Əli Həsənov media kapitanları ilə görüşdü

yazısı səh.4-də



*İqbal Ağazadə:*

### "Avropa Oyunlarına qarşı çağırışlar yanlışdır"

yazısı səh.10-da



*Siyavuş Novruzov:*

### "Məsələ dəqiqləşsə, Avropa İttifaqının Bakıdakı səfiri persona non-qrata elan olunmalıdır"

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 122 (6150) 6 iyun 2015




## ATƏT Azərbaycandakı nümayəndəliyini bağlayır

**ATƏT-in Bakıdakı əlaqələndirici ofisinin bağlanması barədə qərar verilib. Bu barədə "Turan"a məlumatlı diplomatik mənbələrdən məlum olub. Məlumata görə, müvafiq məktub iyunun 3-də Azərbaycan XİN-dən ATƏT-in Vyanadakı baş ofisinə göndərilib.**

"Azərbaycan hökuməti qeyd edir ki, artıq ATƏT-in Layihələr Koordinatorunun Bakıda fəaliyyəti üçün zərurət görmür. Buna görə Azərbaycan hökuməti 2015-ci il, iyunun 4-dən etibarən Azərbaycan hökuməti və ATƏT arasında 24 sentyabr, 2014-cü ildə bağlanmış "ATƏT-in Bakıda Layihələr Koordinatoru haqqında qarşılıqlı anlaşma Memorandumu"nu qüvvədən düşmüş hesab edir. Hökumət bu halda yaranan texniki məsələlərin həlli üçün ATƏT-ə bir ay müddət verir" - deyə məktubda bildirilir.

İyunun 5-də ATƏT-in baş katibi Lamberto Zannier ATƏT-in üzvü olan ölkələrə rəsmi Bakının qərarı haqqında məlumat verib.

Azərbaycan XİN-dən və ya digər qurumlardan hələlik heç bir şərh daxil olmayıb.



## QHT Şurası regionlarda məlumatlandırma sessiyaları keçirib

**4 iyun 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının cari ilin birinci maliyyə yardımı müsabiqəsində qalib gəlmiş layihələrin rəhbərləri üçün Milli QHT Forumunun Şirvan QHT-lərin Resurs və Təlim Mərkəzində məlumatlandırma sessiyası keçirilib.**

Tədbirdə Şirvan, Hacıqabul, Salyan, Biləsuvar, Sabirabad, Saatlı, İmişli və Beyləqan rayonlarının QHT nümayəndələri iştirak edib.

5 iyun 2015-ci ildə şuranın təşkilatçılığı ilə həmçinin Qəbələ Resurs və Təlim Mərkəzində Oğuz, Mingəçevir, Şəki, Qəbələ və Zaqatala QHT-ləri üçün də məlumatlandırma sessiyası təşkil olunub.

Sessiyada çıxış edən şuranın əməkdaşları Mirzə Zahidov və Fərid Qəhrəmanov layihələrin icrası ilə bağlı prosedur qaydaları, hesabatların qəbul olunması formaları haqqında iştirakçılara ətraflı məlumat verib.

Müzakirələrdə region QHT-ləri, onların həyata keçirdiyi layihələrin icra vəziyyəti, hesabatlılıq, ictimaiyyətlə əlaqələrin qurulması, müsbət təcrübələr və onların yayılması mexanizmləri barədə barədə fikir mübadiləsi aparılıb.

## 30 ilin müəllimləri dindar övladlarına görə işdən qovuldu

**Beyləqan rayonu Birinci Şahsevən kəndində üç müəllim övladlarının dindar olmaları səbəbi ilə işdən azad olunublar. Bu haqda avropa.info-ya Beyləqan rayonundakı mənbələrdən məlumat daxil olub.**

Məlumata görə, kəndin 1 nömrəli məktəbindən bir, 2 nömrəli məktəbindən isə iki müəllim işdən çıxarılıb.

Kənd sakinlərinin dediklərinə görə, məktəb rəhbərlikləri müəllimlərin işdən qovulmasının səbəbi kimi onların övladlarının dindar olmasını göstərib. İşdən qovulan müəllimlər Sahib Əliyev, Nurəddin Babayev və Gülnarə Fərmanova 30 ilə yaxın stajları olan qocaman müəllimlərdir.

"Otuz ilə yaxın müəllim fəaliyyəti ilə məşğul olan bu şəxslərin hər üçü müəllim maaşı ilə dolanan kasıb insanlardır".

# Rusiya Sarkisyanın xəyallarını boşa çıxardı

**İran-Ermənistan qaz kəmərinin Ermənistan hissəsi Rusiyanın "Qazprom" şirkətinə satılacaq. Virtualaz.org saytı xəbər verir ki, bu barədə Ermənistanın energetika nazirinin müavini Ara Simonyan bildirib. Bununla belə, Simonyan əlavə edib ki, qaz kəmərinin 41 kilometrlik hissəsinin satılması "Qazprom"a İrandan Ermənistana qaz nəqlini "istədiyi kimi idarə etmək səlahiyyəti" verməyəcək.**



İran-Ermənistan qaz kəməri Ermənistanın yeganə alternativ az təchizatı mənbəyidir. Cüzi nəql gücünə malik qaz kəməri ilə İrandan nəql edilən qaz Ermənistanın sənaye müəssisələrinə və istilik elektrik stansiyalarına verilir. Lakin Ermənistan gələcəkdə bu kəmərin nəql gücünün artırılması, İran qazının öz ərazisindən üçüncü ölkələrə nəqli barədə şirin xəyallar qururdu. Hətta İranla Qərb arasında nüvə anlaşmasından və Tehrana qarşı beynəlxalq sanksiyaların ləğvindən sonra Ermənistanda qaz tranziti ölkəsinə çevrilmək, enerji təchizatı mənbələrini şaxələndirmək barədə şans yarandığını düşünürdülər.

İndi isə İrəvan Rusiyanın təzyiqləri nəticəsində kəməri "Qazprom"a satmalı olur. Qaz kəmərinin satılması Moskvaya Ermənistana qaz nəqli marşrutlarını tamamilə nəzarətə götürməyə imkan verəcək.

"Qazprom" Ermənistana ildə 2 milyard kubmetr qaz nəql edir, həmçinin qazın Ermənistan ərazisində paylanılmasını həyata keçirir. Ermənistan İrandan ildə cəmi 450 milyon kubmetr qaz alır və onun əvəzini elektrik enerjisi ilə ödəyirdi. Cəmi iki ay əvvəl Ermənistanın energetika naziri Armen Movsesyan bildirmişdi ki, İrandan qaz idxalını ildə 2 milyard kubmetrə qədər artırmaq nəzərdə tutulur. Bu isə o demək idi ki, Ermənistanda Rusiyanın qaz buxovundan xilas olmaq fikrinə düşüblər.

O vaxt "Qazprom" bu bəyanata reaksiya verməmdi, ancaq Ermənistanın İrandan qaz idxalını artırmaq planları Moskvaya meydan oxumaq idi. Məhz Ermənistanın qaz təchizatı Rusiyaya bu ölkəni öz forpostuna çevirmək üçün güclü rıçaqlar verir. İranın Ermənistana qazı neçəyə satdığı məlum deyil. Lakin İranın Ermənistandakı səfiri Məhəmməd Raisi bildirmişdi ki, qiymət "müqayisəedilməz dərəcədə aşağıdır".

Bu isə əhalisinin üçdə ikisi yoxsulluq həddində yaşayan Ermənistan üçün ciddi güzəştdir.

## Göyçayda itkin düşən şəxs avtoqəzada ölüb

**Bakı-Şamaxı-Yevlax avtomobil yolunda ölümlə nəticələnən avtomobil qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə dünən saat 19:00 radələrində magistral yolun 203-cü kilometrliyində, Göyçayın Qarayazı kəndi ərazisindən keçən hissəsində qeydə alınıb.**

Göyçay şəhər sakini, 1966-cı il təvəllüdlü Səbuhi İsayev idarə etdiyi 23-BX-050 dövlət nömrə nişanlı "VAZ 2107" markalı minik maşını qarşı tərəfdən gələn Ağsu rayon sakini, 1963-cü il təvəllüdlü Məhərrəmov Əziz Kamal oğlunun idarə etdiyi 54-BB-557 dövlət nömrə nişanlı "KaMAz" markalı yük maşını ilə toqquşub. Zərbənin təsiri nəticəsində yük maşını aşıb. Ağır bədən xəsarətləri alan sürücü Səbuhi İsayev hadisə yerində dünyasını dəyişib.

Məlumata görə, hadisə zamanı dünyasını dəyişən "Bismak" şirkətinin işçisi Səbuhi İsayev 7 gündür ki, itkin düşən şəxs kimi Göyçay Rayon Polis Şöbəsi tərəfindən qeydiyyata alınıb. Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.

## Professorlar TQDK ilə razılaşmır

**TQDK-nın buraxılış imtahanlarının nəticələri ilə bağlı açıqlaması qızğın ictimai müzakirələrə səbəb olub. Qeyd edək ki, IX sinif üzrə ana dili fənnindən 86,5 faiz, riyaziyyatdan isə 86 faizə yaxın şagird müvəffəq qiymət alıb. XI sinif üzrə ana dili fənnindən 91,2 faiz, riyaziyyat fənindən 92,5 faiz, ingilis dili fənindən isə 93,5 faiz məzunun qiyməti yaxşı olub.**

Virtualaz.org saytı məsələ ilə bağlı təhsil üzrə ekspertlərin fikirlərini öyrənib. Professor Şahlar Əsgərov deyir ki, buraxılış imtahanlarının nəticələrinin neqativ fonda göstərilməsi doğru deyil: "Birincisi, həmin nəticələrdə göstərilən "2" və "3" qiymətlərinin faiz göstəricilərinin birlikdə götürülməsinin heç bir elmi əsası yoxdur. "3" alan şagirdlər kafi bilik səviyyəsinə malikdir və bu məzunların uğursuz olmalarını iddia etmək doğru deyil. İkincisi, dünyanın bir çox təhsil sistemlərində də sagirdlərin 10-30 faizi orta təhsil səviyyəsini bitirə bilmir. Amma Bakı şəhərində tam orta təhsil səviyyəsini ana dili fənni üzrə hər 5 şagirddən biri, riyaziyyat fənnindən hər 4 şagirddən biri, ingilis dili fənni üzrə hər 3 şagirddən biri əla qiymətlərlə bitirib. Sadəcə olaraq, faktı və rəqəmi necə çatdırmaqdan çox şey asılıdır. Uzun illər ərzində mediada imtahan nəticələrinin neqativ fonda tirajlanması siyasəti məzunların müsbət göstəricilərinə kölgə salır".

**Professor deyir ki, bu halda təhsilin keyfiyyəti haqqında ictimaiyyətdə elmi əsası olmayan pessimist təəssürat formalaşır:** "Təhsil Nazirliyi buraxılış imtahanlarının nəticələrinin şərhi üçün prosesin tam yekunlaşmasını gözləməyi düzgün hesab edir. Mediada təqdim olunmuş məlumatlar sistemli olmadığından və daha çox populist xarakter daşıdığından bu məlumat əsasında məsələyə münasibət bildirmək doğru deyil".

Professor Əjdər Ağayev isə hesab edir ki, TQDK-nın imtahanlarının ötən günkü nəticələrinə əsasən 11-ci sinif məzunları ingilis dilini Azərbaycan dilindən daha yaxşı bilirlər. Belə ki, ümumilikdə məzunların ana dili fənni üzrə 20,8 faizi "5" aldığı halda, ingilis dili fənni üzrə 28,2 faiz məzun "əla" qiymət alıb. Ümumilikdə ana dili fənni üzrə "2" alanların sayı ingilis dili üzrə "2" alanların sayından daha çoxdur ki, bu da bir sıra suallar yaradır.

Professorun fikrincə, belə bir absurd nəticənin səbəbi TQDK tərəfindən imtahanların çətinlik səviyyəsinin müxtəlif olmasıdır.

## FHN-nin əsgəri bədbəxt hadisə nəticəsində öldü

**Fövqəladə Hallar Nazirliyi Mülkü müdafiə qoşunlarının N saylı hərbi hissəsinin əsgəri, 1992-ci il təvəllüdlü Allahyar Nazim oğlu Məmmədov dünyasını dəyişib.**

FHN-in yaydığı məlumata görə, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhəri, Nərimanov rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış əsgər hərbi hissənin texnika parkında iş görülərkən ehtiyatsızlıqdan baş vermiş bədbəxt hadisə nəticəsində vəfat edib.

Hadisə ilə əlaqədar hazırda Azərbaycan Respublikasının Hərbi Prokurorluğu tərəfindən istintaq aparılır.

## "Şərurlu İsfəndiyar" 17 milyonluq ticarət mərkəzini satışa çıxardı

**Bakıda 17 milyona satışa çıxarılan ticarət mərkəzi ilə bağlı müxtəlif məlumatlar yayılmaqdadır. Bu məlumatlar sırasında xüsusi olaraq keçən xətt "İnqilab Plaza"nın kimə məxsus olduğu və kim tərəfindən alınacağı haqda səslənən iddialardır.**

Axar.az-ın əldə etdiyi məlumata əsasən, Nərimanov rayonu, Həsən Əliyev 36 ünvanında yerləşən "İnqilab Plaza"da işlərin yaxşı getmədiyi, Beynəlxalq Bankdan alınan və gecikdirilmiş kredit borcuna görə rəhbərliyin binanı satışa çıxarmağa məcbur qaldığı qeyd edilir.

Məlumatda bildirilir ki, sözügedən ticarət mərkəzi iş adamı İsfəndiyar Axundova aiddir və o, götürdüyü kreditləri ödəyə bilməsi üçün plazanı satışa qoymaq qərarına gəlib. İctimaiyyət arasında "Şərurlu İsfəndiyar" kimi məşhur olan tikinti maqnatının 17 milyona bu obyekti satmaqla borclarını bağlaya biləcəyi deyilir.

Satışa çıxarılan "İnqilab plaza"nın 4 mərtəbəsində ASAN xidmət yerləşir. İsgəndər Xəlilovun bina ilə maraqlandığı bildirilir.

ISR Şirkətlər Qrupunun prezidenti İsgəndər Xəlilov Rusiyada yaşayır. Onun Bakıda tikdirdiyi binalar var. Hətta onun keçmiş "Bakı" mehmanxanasının yerində yeni plaza tikdirdiyi söylənilir.

İ.Axundov isə axar.az-a eksklüziv açıqlamasında binanın sahibi, satışa çıxarılması və alıcısı barədə yalnız bunları dedi: "Binanı satırlarsa, yaxşı edirlər, mənim bundan xəbərim yoxdur".

Qeyd edək ki, 7 mərtəbəli, ümumi sahəsi 7 min kv/m olan ticarət mərkəzi "İnqilab Plaza" 2011-ci ilin sentyabrında istifadəyə verilib.

YENİ MÜSAVAT
N 122 (6150) 6 iyun 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Saxta vəsiqə" qalmaqalında yeni adlar, yeni ittihamlar...

## İsa Qəmbər ad tələb edir, Elnur Mirzəyev geri çəkilir

**Müsavat Partiyası rəhbərliyi adından saxta mühacirət vəsiqəsi əldə edənlərlə bağlı yayılmış bəyanatın səs-sorağı davam edir. Belçikada oturum almağa çalışan mühacir Elnur Mirzəyevin saxta vəsiqə almaqda ittiham olunması və ardınca baş verən proseslər ortaya xeyli həqiqətləri çıxardı.**

Elə gün olmur ki, sosial şəbəkədə, bununla bağlı polemika açılmasın, qarşılıqlı ittihamlar, bəzən təhqirə varan söz atışmaları yaşanmasın. Əksər hallarda bir-birinə opponentlik edən şəxslər hər şeyin "Yeni Müsavat"da yayımlanan silsilə mühacirət müsahibələrindən qaynaqlandığını iddia edir, bu yazılardan, müsahibələrdən sitatlar gətirirlər.

Biz isə öz növbəmizdə qəzetçi olaraq belə bir gerçəyin üzə çıxmasından olduqca məmnunuq. Layihədə əsas məqsədimiz Avropada yaşayan mühacirlərin həyatından silsilə yazılar hazırlamaq, mühacir dünyasının hər üzünü oxucuya göstərmək olsa da... sonucda ortaya belə bir ifşanın çıxması cəmiyyətimiz üçün də, partiya üçün də olduqca faydalıdır. Hələ ki proses gedir və saxta partiya vəsiqəsi alverinin arxasında kimlərin dayanması ilə bağlı araşdırmaların nəticəsini gözləyirik.

Bu işi kim, nə zaman görüb, ortada fakt varmı, partiya funksionerlərini necə aldadıblar...? Ümid edirik ki, yaxın zamanda bu faktlar üzə çıxacaq və cinayətkarlar da cəzalanacaq. Bu müddət ərzində isə kimin nə deməsindən asılı olmayaq, gündəmin ana mövzularından olan "mühacirət alveri"nin bütün detallarını araşdırmağa, tərəfləri danışdırmağa, prosesi işıqlandırmağa davam edəcəyik. Unutmayaq ki, həqiqətin üzə çıxmasında maraqlı olan şəxslər medianın bu prosesdə güzgü olmasını istəyirlər.

**İndi isə proseslərin son gəlişmə nöqtəsi barədə. İsveçrədə yaşayan mühacir Elbəyi Həsənli artıq prosesə qoşulub və bu barədə bilgilərini facebook səhifəsində paylaşıb. Onlardan bəzilərini təqdim edirik. E.Həsənli bildirib ki, Arif Hacılının rəhbərliyindəki yeni komanda son 6 ayda 483 vətəndaşa Müsavat üzvü olmaqla bağlı arayış verib. Elbəyi Həsənli bir xeyli partiya funksionerinin adlarını da çəkir, onları konkret cinayət əməlində ittiham edir:** "Məlum olur ki, artıq neçə illərdir Müsavat rəhbərliyi, özəlliklə də Arif Hacılı və Gülağa Aslanlı, o cümlədən də onların ətraflarında olan bir sıra funksionerlər - Razim Əmiraslanlı, Səxavət Soltanlı, Rafiq İsmayıl *(Sabunçu rayon təşkilatı)*, Vaqif Davud (Oğuz rayon təşkilatı), Nemət Kərimli (Binəqədi rayon təşkilatı) və bir neçə başqa rayon təşkilat sədrləri mühacirət biznesinə girişiblər. Gülağa Aslanlı soruşur ki, mən 700 manatlıq kişiyəm? Bəli, 700 manat ilk baxışda az görünə bilər. Ancaq nəzərə alsaq ki, 6 aya 483 arayış satılıb və hər bir arayışın orta qiyməti min manatdır, onda söhbət yarım milyon manatdan gedir. Üstəlik, neçə ildir ki, bu alverlə məşğulsan..."

**E.Həsənli bildirib ki, mexanizm olduqca sadədir. Avropaya mühacirət etmək istəyən vətəndaşları ən müxtəlif yollarla tapırlar, onlarla cinayət əlaqəsinə girərək, öncə onları partiyaya yazdırırlar, müəyyən kritik say düzələndən sonra piket, ya da mitinq təşkil edib, onların fotolarını çəkdirirlər, sənədlərini hazırlayıb, bütün bunların əvəzində də pul alıb, Avropaya "müsavatçı" ixrac edirlər. İsveçrəli mühacirin daha bir iddiası isə bugünlərdə keçirilən aclıq aksiyası ilə bağlıdır:** "Bu yaxınlarda keçirilən aclıq aksiyasını da Arif Hacılı - Gülaga Aslanlı-Razim Əmiraslanov məhz biznes məqsədi ilə həyata keçiriblər. Sadəlövh müsavatçıların canlarına qıyaraq etdiyi aksiyadan Hacılı qardaşları və Gülağalar para qazanıblar. Belə ki, aclıq aksiyası bitəndən iki gün sonra 5 "müsavatçı" İsveçrədə peyda olub. Özlərini İsveç miqrasiya xidmətinə təslim edən "azüllər" son aclıq aksiyasında aksiya keçirənlər və Müsavat rəhbərləri ilə birgə çəkdirdikləri fotoları da işlərinin arasına qoyublar".

**İsveçrədə yaşayan mühacir iddia edib ki, konkret bu alverlə məşğul olan şəxslərin adı da ona məlumdur. O, bu sırada Stokholmda yaşayan mühacir Əli Ağayevin, Hollandiyada yaşayan Eldəniz Yusibovun, Almaniyanın Mainz şəhərində yaşayan Yusif Abilovun, İsveçrənin Bazel şəhərində yaşayan Qabil Rzayevin adını çəkib.**



İsa Qəmbər



Elnur Mirzəyev

**"Özləri tapsınlar saxtakarları. Bu gündən mənim adımı da hallandırmasınlar, bəsləridir. Nöqtə qoyuram mən"**

**Bu ittihamlara cavab verənlərdən biri Hollandiyada yaşayan mühacir, eyni zamanda Eldəniz Yusibovun oğlu İsa Yusibov olub. İsa bəy Müsavat rəhbərliyini sənəd satmaqda ittiham edənlərə 3 sual ünvanlayıb: "1)** Əgər doğrudan da partiya rəhbərliyindən kimsə bu sənədi həmən adama veribsə (ki bu ağ yalandır) məsələni niyə partiya özü ört-basdır etmək yerinə ictimailəşdirib? Gülağa Aslanlı bu sənədi 1800-ə satıbsa, niyə elə Gülağa bəy məsələni açıb-ağardıb? Belçika Miqrasiya Xidmətindən gələn sorğuya elə özü "hə, bu adam bizim üzvdür", - deyərdi, heç birimizin də xəbəri olmazdı. Amma dürüst adam ayrı şeydi, Qubadistlər bunu anlamaz.

**2)** Elnur Mirzəyev özü öz ağzı ilə deyir ki "məni aldadıblar". Partiyaya aidiyyəti olmayan sənəd alverçilərinin növbəti qurbanı olduğunu özü deyirsə, "Arif Hacılı sənəd satıb" demək hansı vicdana sığır?

**3)** Elnur Mirzəyev bundan əvvəl dəfələrlə kömək istəyib, partiya rəhbərliyi isə onun adının üzvlər siyahısında olmadığını deyib. Başa düşmək çoxmu çətindi ki, bu adamı ora aparan, başını aldadıb pulunu alan kimdisə Müsavatla yaxından-uzaqdan əlaqəsi yoxdur?"

**Bundan başqa, İ.Yusibov bildirib ki, azərbaycanlıların mühacir olaraq ən çox gəldiyi 3-cü ölkədə 6 il müvafiq nazirlikdə bizim vətəndaşlarla işləyən biri olaraq həmən müddət ərzində 300-dən çox arayış və vəsiqəni tərcümə edib, bir o qədər də mühacirin dövlət tərəfindən sorğusunda birbaşa iştirak edib:** "İstisnasız olaraq tam əminliklə deyə bilərəm ki, ölkədən bura gələn mühacirlərin hamısının (!) arayışları, vəsiqələri, danışdıqları şablon hekayələr ümumi bir mərkəzdən idarə olunur və saxtalaşdırılır. İşlədiyim müddət ərzində Müsavat və AXCP adı ilə gələnlərin sayı sıfırdır. Jurnalist olduqlarını deyənlərin verdiyi arayışda isə hamımızın tanıdığı bir jurnalist və sayt rəhbərinin imzası var. Şəxsən həmən arayış ad fərqi ilə, qalan mətn sabit qalmaqla 23 dəfə ayrı-ayrı şəxslər tərəfindən verilib mənə. İştirak etdiyim sorğularda adı ən çox hallandırılan şəxs Tofiq bəydir ki, bu da bir daha sənəd alverçilərinin heç bir partiyaya dəxli olmayan adamlar olduğunu və uydurulan hekayələr xaric, sənəd saxtalaşdırılmasında kifayət qədər peşəkar olduqlarını göstərir".

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər də bu qalmaqala sosial şəbəkədəki statusu vasitəsilə reaksiya verib:** "Yazıda ən çox diqqətimi çəkən Elnur Mirzəyevin bu sözləri oldu: "Və məni partiyaya apardılar, orda qapıda gözlədim. Sonra da mənə bildirildi ki, məsələ bir-iki günə həll olunacaq. Dedikləri kimi də oldu. İki gündən sonra mənə zəng gəldi ki, hazırdı. Və mənə bilet, Müsavatın nizamnaməsi, himni və strukturları haqda bir qovluq verdilər" ...Apardılar, ...bildirildi, ...zəng gəldi, ...qovluq verdilər... Kim??? Kimlər??? Bax Elnur Mirzəyev bunu da desə, saxta sənəd işbazlarının ifşasına böyük xidmət göstərmiş olar".

**Elnur Mirzəyev isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, onu məkrli olmaqda suçlamaları olduqca qəribə haldır:** "Amma bununla yanaşı, məni ad çəkməyə çağırırlar. Bunu bəyanatdan qabaq etmək olardı yəqin, etmədilər. Ad olsa nə dəyişəcək ki? Mənim əlimdə bu işdə vasitəçilik edən şəxsin telefon nömrəsi də var. Allaha and olsun ki, heç kim məni Müsavata qarşı bunu etməyə məcbur etmir. Bunu Gülağa Aslanlı öz bəyanatı ilə etdi. Özünüz də bura gəldiz. Məni burda gördüz. Elə bir fikrim olsaydı, birinci müsahibəmdə danışardım. Mən onlarla heç bir əməkdaşlıq etməyəcəm. Onlar da getsinlər özləri tapsınlar saxtakarları. Bu gündən mənim adımı da hallandırmasınlar, bəsləridir. Nöqtə qoyuram mən".

❑ **Sevinc TELMANQIZI**

# 125-lərin sədr müavini ölkə prezidentinə müraciət etdi

**125-lər Siyasi Klubunun sədr müavini Günel Səfərova Azərbaycan prezidenti İlham Əliyevə müraciət edib. G.Səfərova ölkə rəhbərindən "Uşaq Fondu"nun yaradılması haqda sərəncam verməsini xahiş edir. Onun yazdığı müraciətdə deyilir:**



Günel Səfərova

"Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasında iki milyondan çox uşaq yaşayır. Rəsmi məlumata əsasən, bu uşaqlardan 62 min nəfəri əlilliyi olan, 10 min nəfərə yaxın internat və uşaq evlərində dövlət himayəsində böyüyən, 2 mindən çox küçədə yaşayıb işləyən, 300.000-dən çoxu məcburi köçkün ailələrində yaşayan uşaqlardır. Azərbaycan Respublikasının Milli Məclisi "Uşaq hüquqları haqqında" Qanunu 1998-ci ildə qəbul edib. 2006-cı ildə isə ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi yaradılıb.

Uşaq müdafiə siyasətinin icrasında dövlət qurumlarına dəstək verən qeyri-hökumət təşkilatlarında uzunmüddətli fəaliyyətim və təcrübəm Azərbaycanda Uşaq Fondunun yaradılmasına ehtiyac olduğunu söyləməyə əsas verir. Belə ki, ölkəmizdə sosial statusundan irəli gələrək dövlət müəssisələrinə (uşaq evləri, internatlar) atılma riski altında olan ailələrə təcili və birdəfəlik yardım göstərən təşkilatların sayı çox azdır və ya onların fəaliyyəti az sayda uşağı əhatə edir. Birbaşa çalışdığım aztəminatlı ailələrin çoxsaylı müraciətlərini əsas götürərək Uşaq Fondunun yaradılması ilə bağlı qərar verməyinizi Sizdən xahiş edirəm.

Hörmətli cənab Prezident

Azərbaycanda uşaq müdafiəsi siyasətində önəmli rol oynayacaq Uşaq Fondunun təsis edilməsi ilə bağlı Sizin müsbət qərar verəcəyinizə inanıram".

YENİ MÜSAVAT
N 122 (6150) 6 iyun 2015

**İyunun 5-də prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun media kapitanları ilə görüşü keçirilib. Musavat.com-un məlumatına görə, görüşdə 50-dən artıq qəzet redaktorları və sayt rəhbərləri iştirak ediblər.**

# Əli Həsənov media kapitanları ilə görüşdü

## "Əgər Qərbin təlqin etdiyi demokratiya budursa, biz bu demokratiyanın tərəfdarı deyilik"







**Əli Həsənov** tədbirdə çıxış edərək, ölkədə keçiriləcək ilk Avropa Oyunlarına dəstək verdiyinə görə mətbuata təşəkkürünü bildirib: "Avropa Oyunları Azərbaycan tarixinin önəmli səhifəsidir. İlk Avropa Oyunlarının keçirilməsi Azərbaycan tarixinə yazılacaq hadisədir. Kimin necə münasibət bildirməsindən asılı olmayaraq bu oyunlar tarixə mühüm bir hadisə kimi yazılacaq. Biz necə ki, BMT Təhlükəsizlik Şurasına üzv seçildik, eyni ilə də ilk Avropa Oyunlarının tarixinin Azərbaycandan başlaması mühüm bir hadisədir".

**Ə.Həsənov qeyd edib ki, mətbuatın 140 illik yubileyinin geniş şəkildə qeyd olunması ilə bağlı dövlət başçısı sərəncam imzalayıb və bu tədbirdə həmin sərəncamdan irəli gələn məsələlər müzakirə ediləcək:** "Prezidentin həmin sərəncamı milli mətbuata, milli jurnalistikaya verdiyi dəyərdir. Bu sərəncamdan irəli gələn məsələləri istəyirik sizinlə birlikdə müzakirə edək. Birgə tədbirlər planını hazırlayaq. Bundan sonra müzakirə olunan məsələlər, təklifləri Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevə təqdim edəcəyik. Birbaşa onun nəzarəti ilə milli mətbuatın 140 illiyi ilə bağlı sərəncama müvafiq olaraq həmin tədbirlər planı təsdiq olunacaq".

**MŞ sədri Əflatun Amaşov isə bildirib ki, dövlət başçısının mətbuatın yubileyi ilə bağlı sonunu sərəncamı əhatəliliyinə görə fərqlənir:** "Fundamental təsir bağışlayır. Bu sərəncamın qəbul olunmasında mətbuatın keçdiyi 140 ilə baxış düzənlənir və keçmiş və gələcəyin vəhdəti birlikdə verilir". Ə.Amaşov yubileylə bağlı jurnalistlərin mükafatlandırılmasından danışaraq deyib ki, artıq redaksiyalardan təkliflər və siyahılar gəlir: "Belə getsə, bayrama qədər mükafat almaq istəyənlərin sayı minə çatacaq".

Ə.Amaşov həmçinin sosial şəbəkələrdə Avropa Oyunları ilə bağlı gedən müzakirələrdən də danışıb və təhqir səviyyəsində rəylərin olduğunu vurğulayıb. O, bununla bağlı tədbirlər görülməsinin vacibliyini qeyd edib. MŞ sədrinin sözlərinə görə, sosial şəbəkələrdə o özü və bəzi media rəhbərləri də təhqirlərə məruz qalır və bununla bağlı məsələ yuxarı səviyyədə diqqətə çatdırılıb müzakirə edilməlidir.

**Ə.Həsənov isə münasibətini bu cür bildirib:** "Əgər Qərbin təlqin etdiyi demokratiya budursa, biz bu demokratiyanın tərəfdarı deyilik". O, veriləcək medallarla bağlı kriteriyaları da açıqladı: "Məsələn, 12 il işləyənə "Tərəqqi" medalı, 15 il işləyənə "Əməkdar jurnalist" adı verilə bilər və sair..."

Media kapitanları isə yubiley tədbirinin keçirilməsi ilə bağlı təkliflərini veriblər. Təkliflər arasında tədbirlərdən birinin Naxçıvanda keçirilməsi də var. Həmçinin redaktorların qatılacağı yubiley tədbirinin ölkə xaricində, məsələn, Türkiyədə, yaxud Gürcüstanda keçirilməsi təklif olundu. Eyni zamanda Mətbuat Muzeyinin yaradılması təklif edildi.

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov isə bildirib ki, mükafat üçün təqdim olunacaq insanlara diqqətlə diqqətlə yanaşmaq lazımdır:** "Kimsə gəlib deyə bilər ki, mənim hansısa xidmətim var. Bir az möhkəm durmaq lazımdır. Staj və peşəkarlıq nəzərə alınmalıdır. Staj əsas meyar olmalı deyil. Təqdim olunan insanın mənəvi keyfiyyətlərinə də diqqət yetirmək lazımdır. Seçimdə diqqətli və tələbkar olmaq lazımdır. Layiqli olanları biz seçək, biz yaxından tanıyırıq. Ədalətli, düz olaq".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Facebook qanunları Əflatun Amaşovun tələbinə nə deyir...

**"Facebookda siyasətçiləri təhqir edən səhifələr bağlanmalıdır". Bu sözləri Mətbuat Şurasının sədri Əflatun Amaşov prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun media rəhbərləri ilə görüşü zamanı deyib. MŞ sədri bəzi sosial şəbəkələrdə yaradılan səhifələrə toxunub. O, "Ümummilli paz" adlanan facebook səhifəsində ölkənin bir neçə media kapitanlarının, siyasətçilərinin şəkillərinin yerləşdirildiyini və ünvanlarına təhqiramiz ifadələrin işlədildiyini deyib. Ə. Amaşov əlavə edib ki, bu cür səhifələrin bağlanması mümkün olmazsa, Azərbaycan facebook rəhbərliyi ilə danışıqlar aparmalıdır.**

Bəs görəsən, facebook rəhbərliyinə müraciət etməklə hansısa səhifələrin və ya istifadəçi hesablarının bağlanılması sosial şəbəkənin daxili qaydalarına görə, mümkündürmü? Ümumiyyətlə, sosial şəbəkələrdə təhqirə görə məsuliyyət varmı?

"Yeni Müsavat"ın suallarını cavablandıran **media hüququ üzrə ekspert Ələsgər Məmmədli** bildirdi ki, sosial şəbəkədə və ya hansısa internet resursunda kimsə təhqir olunubsa, o zaman həmin səhifəni bağlamaq deyil, məhkəməyə müraciət etmək lazımdır: "Azərbaycan qanunvericiliyinə görə, təhqir və böhtana görə xüsusi ittiham qaydasında cinayət işi açıla bilər və həmin şəxslərə qarşı məhkəmədə ittiham qaldırıla bilər. Amma səhifənin bağlanması real görünmür. Birincisi, hər hansı televiziya və media qurumu kimisə təhqir etdiyi zaman qərar media qurumunu və ya həmin telekanalı bağlamaq olmur. Həmin təhqir edən şəxslər ya cərimələnir, ya da məsuliyyətə cəlb olunur. Burada da məsələ eynidir, həmin şəxslər ya cinayət məsuliyyətinə, ya da mülki məsuliyyətə cəlb oluna bilər".

**Ekspertin sözlərinə görə, sosial şəbəkələrin infrastrukturunun Azərbaycanda olmaması yerli qanunvericiliklə bu kimi addımların atılmasını əngəlləyir:** "Azərbaycan qanunvericiliyi bu baxımdan beynəlxalq standartlardan fərqlənir. İnkişaf etmiş ölkələrdə təhqirə və böhtana görə həbs cəzası olmadığı halda bizdə həbs cəzası var və Azərbaycanın qanunvericilik normaları beynəlxalq səviyyədə qəbul olunmur. Azərbaycanda çıxarılan məhkəmə qərarı nə olursa olsun, bunu beynəlxalq aləmdə heç kim qəbul etmir. Bu baxımdan da mən bunun effektiv bir yol olacağına inanmıram. Bu o zaman effektiv ola bilər ki, Azərbaycan qanunvericiliyi beynəlxalq qanunvericiliklə üst-üstə düşsün. Azərbaycanda diffamasiya haqqında qanun qəbul olunmadı. Bu baxımdan biz ancaq öz yağımızda qovrula bilərik. Biz deyə bilərik ki, facebook sosial şəbəkəsində təhqir yazan insanı cəzalandıracağıq. Ancaq bu şəxs Azərbaycanda yaşamırsa, üçüncü ölkədə bunu edirsə, ona qarşı heç bir qanun işləmir. Düzdür, facebookun öz daxili qaydalarına görə böhtan, təhqirlə dair şikayətlər olursa, şəbəkə rəhbərliyi bunu araşdırır, əgər həqiqətən təhqir varsa, o zaman çoxsaylı müraciətlər nəzərə alınaraq səhifə bağlana bilər. Facebook qaydalarına görə, əgər həqiqətən sosial şəbəkə istifadəçisi olan şəxs üçüncü şəxsləri təhqir edir, onların şərəf və ləyaqətini alçaldırsa, yalan məlumatlar yayırsa, pornoqrafiya və sair yayırsa, o zaman facebook onların qarşısını alacaq".



**Osman Gündüz:** "Facebook rəhbərliyinə adi istifadəçi də, təşkilat da, dövlət qurumu da, hökumət də müraciət edə bilər"



**Ələsgər Məmmədli:** "Azərbaycanda diffamasiya haqqında qanun qəbul olunmadığına görə qanunvericilik normaları beynəlxalq səviyyədə qəbul olunmur və ciddi qarşılanmır"

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz də qeyd etdi ki, qanunvericilik təhqir və böhtanla bağlı məsələləri tənzimləyir:** "Həm qanunvericilikdə, həm də məhkəmə təcrübəsində təhqir və böhtana görə həbslə bağlı kifayət qədər təcrübələr var. Bu məsələ həm Cinayət Məcəlləsində, həm də Mülki Məcəllədə öz əksini tapıb. O ki qaldı sosial şəbəkələrə, bu, Azərbaycan internetinin ən güclü inkişaf etmiş sahəsidir. Mən belə düşünürəm ki, əksinə, sosial mediada hazırda ictimai əhəmiyyətli məsələlərin müzakirəsi daha geniş və daha səviyyəli şəkildə aparılır, nəinki əvvəlki dövrlərdə. Əvvəllər sosial şəbəkədən istifadə daha bəsit şəkildə aparılırdı, indi isə əksinə, ictimai əhəmiyyətli məsələlər müzakirə olunmur, burada dövlət qurumları, millət vəkilləri, ictimai xadimlərlə əlaqələr qurulur. Bunlar kifayət qədər normal şəkildə inkişaf edir. Azərbaycanda sosial medianın faydalılıq xətti yüksəlib".

Osman Gündüzün sözlərinə görə, sosial şəbəkə real həyatın inikasıdır, burada da qanunvericiliyin tələbləri pozula bilər.

**Bu məsələnin facebookun daxili qaydalarına uyğun olaraq tənzimlənməsinə gəlincə, ekspert də vurğuladı ki, facebookun daxili qaydalarına görə bu kimi hallarla mübarizə aparmaq olar:** "Məhkəməyə qədərki yol ondan ibarətdir ki, bu sosial şəbəkələrin də administrasiyası var və qayda-qanunları mövcuddur. Facebook qaydalarında hər şey təsbit olunub və orada da təhqir, böhtan qadağandır. Ancaq 1 milyardlıq şəbəkəsi olan bir resursda bu qaydalara əməl olunması rəhbərlik üçün çox çətindir. Ancaq mümkünsüz deyil. Facebook rəhbərliyinə adi istifadəçi də, təşkilat da, dövlət qurumu da, hökumət də müraciət edə bilər. Facebook, twitter, youtube və digər sosial şəbəkələr hər il hesabat verirlər ki, ötən il hökumətlər tərəfindən onlara nə qədər müraciətlər olub. Ancaq bu qlobal şəbəkələr tərəfindən də hökumətlərə qarşı ayrı-seçkilik edilir, ikili standartlar olur. Məsələn, Almaniya hökumətinin müraciətinə müsbət cavab verilir, Türkiyə hökumətinin müraciət isə rədd edilir".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 122 (6150) 6 iyun 2015

# Hakimiyyət ciddi dəyişikliklər ərəfəsindədir

**2015-ci ilin ilk 5 ayı hakimiyyət üçün çətin sınaqlarla yadda qaldı. Qərblə münasibətlərin ilin əvvəlində yenidən kəskinləşməsi fonunda iqtidar-müxalifət danışıqları yenidən gündəmə gətirildi. Neftin kəskin düşməsi, nəhayət, fevralın 21-də manatın devalvasiyasını qaçılmaz etdi. Bu isə hakimiyyətin iqtisadi siyasətini tənqid hədəfinə tuş gətirdi.**



# Prezidentin islahatlar planı: yeni komanda, yeni parlament...

## Daha rasional iqtisadi komanda "neft iyinə bulaşmamış" kadrlara həvalə ediləcək; yeni iqtisadi-siyasi gerçəklik öncə idarəetmədə və ictimai nəzarət funksiyasını yerinə yetirən parlamentdə də ciddi dəyişikliklər tələb edir

Mart ayında Beynəlxalq Bankda başlamış araşdırmalar oliqarxların kütləvi həbslərinə yol açdı. Bunun ardınca isə Binəqədi rayonunda binanın yanması yeni həbslərlə və dövlət büdcəsi hesabına bəzədilmiş yüzlərlə binaların üzlüklərinin sökülməsi ilə nəticələndi.

Yanğınla bağlı yaradılmış Dövlət Komissiyasının iclasında prezident İlham Əliyev hakimiyyət komandasında problemlərə toxundu, ad çəkməsə də ayrı-ayrı məmurların özbaşınalığından, dövlət əmlakının mənimsənilməsindən danışdı, ona hətta doğru olmayan məlumatlar verildiyini söylədi və sərt cəza tədbirlərinin görüləcəyini dedi.

28 mayla bağlı bayram törənində isə sanki həmin çıxışının davamı kimi ölkədaxili məsələlərdən danışarkən hakimiyyətdə olduğu illər ərzində bəlkə də ilk dəfə idarəetmədə ciddi islahatlara ehtiyac olduğunu bildirdi. **"Prezident hər şeydən xəbərdar olmaya da bilər"** - deyən dövlət başçısı ictimai nəzarətin gücləndirilməsinin zəruriliyindən danışdı. Bu, yanğından keçən son bir həftədə üçüncü siqnal hesab oluna bilər və aydındır ki, cəmiyyətə yönəlik sadəcə mesaj da deyil. Sanki artıq bəzi mexanizmləri hazırlanmış dəyişikliklərin işə salınacağının anonsudur.

Son beş ayda baş verənlər mühüm və qaçılmaz bir reallığı ortaya qoydu: yeni iqtisadi, sosial və siyasi gerçəklik dəyişiklik tələb edir. Öncə komandada, idarəetmədə və bunlarla paralel olaraq cəmiyyətdə ictimai nəzarət funksiyasını yerinə yetirən media və müxalifətdə...

Avropa Oyunlarından sonra hamı mümkün böhrandan danışır. Hətta ekspertlər parlament seçkiləri ərəfəsi *(oktyabr-noyabr)* manatın ikinci devalvasiyasını proqnozlaşdırırlar. Neftin qiymətinin hələ uzun müddət dövlət büdcəsinə arzuedilən gəlir gətirməyəcəyi də gözlənilir. Faktiki ölkə iqtisadiyyatı neftin qiymətinin tənəzzülü ilə yeni mərhələyə adlayıb. Bu mərhələdə hakimiyyət artıq əvvəlki rahatlıqla dövlət büdcəsini yönləndirə və xərcləyə bilməyəcək. İndi daha rasional iqtisadi komanda formalaşdırılmalı, qeyri-neft sektorunun inkişafını sürətləndirə biləcək islahatlar aparmalı və bu islahatlara cavabdehlik "neft iyinə bulaşmamış" kadrlara həvalə edilməlidir. Məlumatlara görə, dövlət başçısı iqtisadi komandasını tam yenidən formalaşdırmaq niyyətindədir və bunun üçün ən radikal addımlara, hətta könüllü getmək istəməyən iri korrupsiyaçıları həbs etdirməyə belə qərarlıdır. Belə məlumatlar var ki, Avropa Oyunları bitəndən sonra bir neçə nazirlik və dövlət komitəsinin ləğvi, bəzilərinin isə səlahiyyətlərinin məhdudlaşdırılması üzrə təkliflər paketi hazırlanır. Dövlət Gömrük Komitəsinin ləğv edilməsi, səlahiyyətlərinin bir qisminin ASAN xidmətə, bir qisminin isə Vergilər Nazirliyinə verilməsi nəzərdə tutulur. Kənd Təsərrüfatı Nazirliyinin ləğv edilərək səlahiyyətlərinin İqtisadiyyat və Sənaye Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında bölüşdürülməsi də müzakirə edilir. Bundan başqa, Səhiyyə Nazirliyinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birləşdirilməsi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ləğvi, funksiyalarının İqtisadiyyat və Sənaye Nazirliyinə verilməsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin ləğvi, səlahiyyətlərinin Maliyyə Nazirliyinə veriləcəyi deyilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Statistika Komitəsinin, Diasporla iş üzrə Dövlət Komitəsinin ləğvi nəzərdə tutulur. Bu proses isə təkcə lazımsız ştatların ləğvi ilə dövlət büdcəsinə qənaət deyil, həm də illərdir kreslolarından qopmayan korrupsiyaya bulaşmış böyük bir məmur ordusunun getməsi ilə nəticələnəcək.

Məlumatlara görə, xüsusilə iqtisadi sferada iqtidarın yeni dövrlə ayaqlaşa biləcək kadr potensialı da nəzərdən keçirilib və nəticələr ümidvericidir. Bu komanda dəyişikliyi hakimiyyətin imici üçün də çox önəmlidir. *(Norveçin ölkəmizdəki sabiq səfiri Steynar Gilin "mən Bakıda səfir işləyəndə də baş nazir Artur Rəsizadə idi" deməsini xatırlamaq kifayətdir).*

Yeni iqtisadi və sosial reallıq iqtidarın daxili siyasətində də daha sərištəli addımların atılmasını şərtləndirir. 2015-ci il parlament seçkiləri ilə bağlı yayılan məlumatlar bir qədər ziddiyyətlidir. Amma ən son xəbərlərin təhlili göstərir ki, daxili siyasətdə mümkün dəyişikliklər, ilk növbədə, parlamentin yeni tərkibində özünü göstərməlidir. Bunun üçün isə yeni parlamentdə müxalifətə yer verilməlidir. Prezident ictimai nəzarət dedikdə həm də hakimiyyətin əsas qollarından biri olan parlamentin "diriltdilməsini" nəzərdə tutduğu söylənilir. Çünki müxalifətin sıxışdırılması, tənqidçi səsin boğulması ilə cəmiyyətdə ictimai nəzarət funksiyası itib və bəzi məmurlar özünü daha rahat, daha doğrusu, məsuliyyətsiz hiss edirlər. Müxalif tənqidin qayıtması ilə cəmiyyətdə bir canlanma da meydana gəlməli, məmur ordusunu daha məsuliyyətli olmağa vadar etməlidir. İkinci bir tərəfdən, yeni reallıqlar ən vacib bir məsələni - qanun islahatlarını həyata keçirməyi tələb edir ki, bunun da yolu parlamentdən keçir. Məlumdur ki, oliqarx-məmurlar monopolist və ya siyasi maraqlarına toxunan qanunları parlamentdən keçməyə qoymurlar *(Məsələn, tütün mafiyası ictimai yerlərdə siqaret yasağının illərdir qanun kimi qəbul edilməsinə imkan vermir)*. Bu səbəbdən də noyabrda formalaşacaq parlamentin tərkibində dəyişiklik olmalı və real müxalifətə də tribuna verilməlidir. Bu, iqtidarla-müxalifət arasındakı disbalansı da, gərginliyi də azalda bilər.

Dəyişikliklər sırasında ictimai nəzarəti həyata keçirən güclü medianın rolunun artırılması da var. Prezidentin mətbuatın 140 illiyi ilə bağlı sərəncamı bu siyasətin yalnız bir işarəsidir. Yaxın vaxtlarda mediaya dövlət dəstəyinin daha da artırılacağı deyilir.

Beləliklə, hakimiyyət ciddi dəyişikliklər ərəfəsindədir və bu dəfə daha qərarlı görünür...

❑ **Xəbər xidməti**



# Azərbaycana geni dəyişdirilmiş məhsullar gətirən və satanlar cəzalandırılacaq

## Prezident İlham Əliyev bununla bağlı sərəncam imzaladı

**Azərbaycan prezidenti İlham Əliyev "Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2015-ci il 28 aprel tarixli qanunun tətbiqi barədə sərəncam imzalayıb. APA-nın məlumatına görə, Nazirlər Kabinetinə Azərbaycan Respublikası qanunlarının və prezidentin aktlarının "Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini 3 ay müddətində hazırlamaq, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını 3 ay müddətində təmin etmək, habelə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə 5 ay müddətində prezidentə məlumat vermək tapşırılıb.**

Ədliyyə Nazirliyi isə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanuna uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməlidir.

Dəyişikliyə əsasən, CM-ə aşağıdakı məzmunda 200-2-ci maddə əlavə edilib:

"Maddə 200-2. Genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının qanunsuz dövriyyəsi

200-2.1. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarını bilə-bilə idxal etmə və ya satma, bu əməllər xeyli miqdarda törədildikdə - üç min manatdan beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

200-2.2. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edərək yeyinti məhsullarını istehsal etmə -

dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

200-2.3. Bu Məcəllənin 200-2.1-ci və 200-2.2-ci maddələrində göstərilən əməllər külli miqdarda törədildikdə - yeddi min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".

# Müdafiə Nazirliyi: "Bu məlumatlar dezinformasiyadır"

**İyunun 5-də Ağdam rayonunun Qaradağlı kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən monitorinq zamanı Azərbaycan tərəfinin ATƏT müşahidəçilərini guya ön xəttə çıxarmaması barədə Ermənistanın elektron kütləvi informasiya vasitələrinin yaydığı məlumat tam yalandır və dezinformasiya xarakteri daşıyır.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, keçirilən monitorinqdə iştirak edən təcrübəli müşahidəçilərin uzun illərdir bu fəaliyyətlə məşğul olmaları, bölgənin relyefini yaxından tanımalarını nəzərə alaraq onların əvvəlcədən planlaşdırılaraq təyin edilən koordinatlara deyil, başqa nöqtəyə çıxarılması qeyri-mümkündür.

Erməni tərəfi bu cür yalan məlumatlar yaymaqla hər bir vasitə ilə növbəti dəfə beynəlxalq qurumu öz təxribatlarına cəlb etməyə cəhd göstərir, beynəlxalq missiyanı həyata keçirən ATƏT müşahidəçilərinin fəaliyyətinə kölgə salmaq və onların adlarının erməni tərəfinin çirkin əməllərində istifadə edilməsi məqsədini daşıyır.

Müdafiə Nazirliyi bildirir ki, iyunun 5-də qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb və onu həyata keçirən müşahidəçilər (Xristo Xristov və Piter Svedberq) missiyalarının yerinə yetirilməsi üçün yaradılan şəraitə görə Azərbaycan tərəfinə minnətdarlıq ediblər.

Qeyd edək ki, məhz erməni tərəfi cari ilin yanvar ayının 14-də və 29-da qoşunların təmas xəttində monitorinqlərin plana uyğun olaraq keçirilməsinə mane olub.



# Müsavat ləkə götürməz!

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Bu günlər Müsavatla bağlı iki ilginc hadisə Azərbaycana Cümhuriyyət bəxş eləmiş qos-qoca partiyanın adını yenidən gündəmə gətirib. Biri böyük öndər, nurlu insan Məhəmməd Əmin Rəsulzadənin Gəncədəki büstü ilə bağlı yaranan qalmaqal, digəri isə Müsavat adından istifadə edib Avropada mühacir statusu alanlarla bağlı qopmuş hay-küydür.**

Başa düşürük, Rəsulzadənin daşı həmişə ağır olub. Ancaq diqqət edin, məsələni gündəmə müsavatçı yox, VHP sədri, tanınmış millət vəkili Sabir Rüstəmxanlı gətirib. Gəncənin hazırkı rəhbərliyinin vandalist hərəkətinə sərt reaksiyalar da partiya mənsubiyyətindən asılı olmayaraq, ziyalı kəsimdən, ictimaiyyət nümayəndələrindən gəlib.

Həmçinin ölkənin əsas siyasi palitrasının məsələdə mövqeyi həmişəki kimi, eyni olub: Cümhuriyyət qurucusu Məhəmməd Əmin Rəsulzadə, Cümhuriyyət atributları toxunulmazdır, onlara qarşı həqarətlər yolverilməzdir, yersizdir!

Sözü ona gətiririk ki, Rəsulzadə sevgisi çoxdan partiya çərçivəsindən çıxıb. Bəlkə baş səbəb məhz elə burada axtarılsın? Rəsulzadəyə hörmətsizlik onun qaldırdığı üçrəngli bayrağımıza, gənc dövlətimizə hörmətsizlikdir, həqarətdi. Bunu anlamaq çoxmu çətin?..

***

İkinci məsələyə - Müsavat adının qanunsuz mühacirlərlə hallanmasına gəlincə, bu da natəmiz insanların partiyaya, onun şanlı tarixinə, müsavatçılığa ikrah və qısqanc münasibətdən doğan çirkin əməlləridir; seçki ilində bədniyyətlilərin qurduğu və yüzdə yüz uğursuzluğa düçar olacaq qara PR kampaniyasının tərkib hissəsidir.

Məlum. Son qurultaydan və başqan dəyişikliyindən sonra Müsavat daxilində və ətrafında ağır, xoşagəlməz proseslər baş qaldırıb. Ancaq fakt həm də budur ki, Müsavat həmin qurultayda YAP daxil, heç bir partiyanın cürət eləmədiyi demokratik bir ilkə imza atıb. Bunun ardınca oradan olan qopmalar bəlkə də ayrı söhbətin mövzusudur, ancaq ikinci dərəcəli məslədir və əsla Müsavatı qaralamağa, onu antidemokratik, hətta "despotik" təşkilat kimi qələmə verməyə tutarqa vermir.

İndi də qanunsuz mühacirət söhbəti ortaya atılıb. Ölmədik, bu günü də gördük. Sən demə, Müsavat, onun rəhbərliyi korrupsiyaya qurşanıbmış. Müsavat çirkli işlərlə məşğul olsaydı, yerli və xarici güclərlə siyasi bazarlıqlara getsəydi, daha müxalifətdə nə işi vardı? Elə vaxtında, qat-qat sanballı siyasi dividentlərin qarşılığında hakimiyyətlə bazarlaşar, özünün onlarla həqiqi və dürüst müsavatçısı da bu gün Avropaya sığınmaq zorunda qalmazdı...

Heç kim çörəyi qulağına yemir, suyu da kimsə burnuna içməz. Müsavat Allah eləməmiş, korrupsiyaya qurşansaydı, o zaman müstəqil Azərbaycanda qatıldığı bütün seçkiləri uda bilərdimi? Xalq ona səs verərdimi? Nəhayət, bu gün ən çox siyasi məhbusu olan, birdən-birə üç müavini (!!) zindanda yatan yeganə təşkilat olardımı?

Bu nağıllara kim inanar? Üstəlik, söhbət İsa Qəmbər kimi saf, əqidəsi möhkəm və bütün siyasi sınaqlardan alnı-açıq çıxmış bir insanın başqan olduğu dövrdən gedirsə?! Əlbəttə ki, iftiradır. Buna partiya rəhbərliyinin, başqan müavini Gülağa Aslanın məsələ ilə bağlı verdikləri reaksiyalar, bəyanatlar, açıqlamalar şübhə yeri saxlamır. İsa Qəmbərin bu xüsusda fikirləri isə məsələyə faktiki, nöqtə qoyur...

***

Haqqında danışdığımız hər iki hadisə konkret münasibətin göstəricisidir təbii ki. Müsavata, M.Ə.Rəsulzadəyə, onun qiymətsiz irsini səmimi qəlbdən və təmənnasız daşıyan, əyilməyən, sınmayan insanlara münasibətin göstəricisidir. Biri ölkə məmuriyyəti və bu məmuriyyətin arxasındakı siyasi gücün, digəri də Müsavat adına ləkə yaxmaq istəyən, bu müqəddəs addan istifadə edib, cəfa çəkmədən Avropada səfa görmək istəyənlərdir. Yazıqlar və ayıb olsun!..

Söz yox ki, günün birində Müsavatda nə İsa Qəmbər olacaq, nə Arif Hacılı, nə də indiki üzvlər. YAP, bir çox digər partiyalar da meydanda artıq olmayacaq. Amma Müsavat, Rəsulzadə brendi həmişə olub və bu xalq durduqca da həmişə olacaq! Çünki Müsavat, Rəsulzadə - dəyərdir, özü də xalqın və tarixin testindən uğurla keçmiş bir dəyər, milli sərvət. Sərvət, dəyər isə ləkə götürməz. Özünüzü yormayın.

Bir də Rəsulzadə zirvəsinə daş atmayın. Göy üzü daş saxlamır.

# Ölümün cəzası - ölümmü - İslam nə deyir?

## Dinimizə görə edam cəzası nə zaman və hansı hallarda tətbiq oluna bilər...

**Pirallahı rayonunda azyaşlının xüsusi amansızlıqla qətlə yetirilməsi Azərbaycanda ölüm hökmü cəzasını yenidən gündəmə gətirib. Bir sıra ictimai fəallar, hətta deputatlar bu tip ağır və islaholunmaz cinayətləri törədənlərə qarşı ölüm hökmü cəzasının tətbiq olunmasına çağırırlar.**

Xatırladaq ki, Azərbaycanda ölüm hökmü cəzasına 1993-cü ildə moratorium qoyulub, 1998-ci il fevralın 10-da isə edam cəzası ləğv edilib. Buna qədər Azərbaycanda yalnız ağır, xüsusilə ağır cinayətlərdə məhkum olunan şəxslərə ölüm hökmü elan edilib. O vaxta qədər ölüm hökmünə məhkum edilmiş, lakin cəzaları icra olunmamış 128 nəfərə həyatları bağışlanıb.

Lakin dünyanın bir sıra ölkələrində, o cümlədən ABŞ, Çin kimi nəhəng dövlətlərdə, habelə əksər müsəlman dövlətlərinin hüquq sistemində ölüm cəzası hələ də qalır. Ümumilikdə isə hazırda dünyada 70-dən artıq dövlətdə edam cəzası hələ də mövcuddur. 25 ölkədə isə edam cəzası hüquqda mövcud olsa da, son 10 ildə heç kim edam olunmayıb.

Hazırda dünyada ən çox edam cəzaları Çin, İran, Pakistan, ABŞ, Səudiyyə Ərəbistanı, İraq, Vyetnam kimi ölkələrdə həyata keçirilir. Göründüyü kimi, edam cəzaları dünya üzərində müxtəlif coğrafiyalarda yayılıb. Müsəlman ölkələri - İran, Səudiyyə Ərəbistanı, Pakistan, eləcə də xristian ölkələri - ABŞ, Fransa və sair. Həmçinin kasıb ölkələrlə yanaşı, Yaponiya, Sinqapur və sair kimi inkişaf etmiş və ya etməkdə olan ölkələrdə edam cəzaları mövcuddur. Qonşu Türkiyədə edam cəzaları 2002-ci ildə qismən (ağır cinayətlər istisna olmaqla), 2006-cı ildə tamamilə ləğv olunub. 1920-1984-cü illər ərzində Türkiyə Böyük Millət Məclisi 712 edam qərarını dəstəkləyib.

**1991-ci ildə qəbul olunmuş İnsan Hüquqlarına dair Avropa Konvensiyasını təsdiq edən 6 saylı protokolda ölüm cəzasının ləğv olunduğu bəyan edilir. Yalnız 3 hal istisna olmaqla, ölüm cəzasının tətbiqi qadağan olunurdu. Bunlar: 1)** Qanunsuz zorakılıqdan müdafiə, yəni zəruri özünümüdafiə vəziyyətində; **2)** Məhkum saxlanılarkən və ya həbs yerindən qaçmasının qarşısı alınarkən; **3)** Qiyam və ya kütləvi iğtişaş zamanı. Dövlətə qarşı həyata keçirilən qiyam və kütləvi iğtişaşın qarşısının alınması ölüm hadisəsinə yol verilə bilər.

Qeyd edək ki, Azərbaycanda ölüm hökmünün tərəfdarları ilə yanaşı əleyhdarları da az deyil. Xüsusən də bir çox tanınmış hüquqşünaslar, insan hüquqları müdafiəçiləri hesab edir ki, məhkəmələr ədalət tamamilə bərqərar olmadığı üçün Azərbaycanda ölüm hökmünü bərpa etmək risklidir. Yəni ölüm cəzası günahsız insanlara da tətbiq oluna bilər.



Yeri gəlmişkən, hər nə qədər ədalətli mühakimə institutu bərqərar olsa da, hətta ABŞ-da da mübahisəli, yalnız edam qərarlarına rast gəlinir. Bu mənada təcrübəli hüquqşünaslar indiki halda edam cəzasına ehtiyatlı yanaşır. Lakin eyni zamanda cəmiyyətlər inkişaf etdikcə hiss olunur ki, edam cəzaları kimi hökmlər qaçılmazdır. Çünki bu cür cəzalar cinayətkarın cəzalandırılması, yəni qisas hüququnun ədalətli təmini ilə yanaşı sərt də olsa tərbiyəvi metoddur. Ağır cəzalar insanları müəyyən mənada cəzalardan çəkindirmək xüsusiyyəti də daşıyır.

Bu yanaşma İslam dinində xüsusən bariz şəkildə qeyd olunur. Qurani-Kərimin bir sıra ayələri edam cəzasının məhz bu məqamına diqqət çəkir. **"Ey iman gətirənlər! (Qəsdən) öldürülən şəxsdən sizin üçün qisas almaq hökmü qərara alındı (vacib oldu). Azad şəxsi azad şəxsin, qulu qulun, qadını qadının əvəzində (öldürə bilərsiniz). (Öldürülən şəxsin) qardaşı (varisi) tərəfindən (müəyyən bir şey, qanbahası müqabilində) bağışlanmış (qatil) ilə adətə görə (yaxşı) rəftar edilməlidir. Bağışlanmış (qatil də) yaxşılıqla (qan sahiblərinə) "diyə" (qanbahası) verməlidir. Bu, (qisası qanbahası ilə əvəz etmək hökmü) Rəbbiniz tərəfindən sizin üçün bir yüngüllük və mərhəmətdir. Bundan (diyə müqabilində bağışlamaqdan) sonra təcavüzkarlıq edən (qatili öldürən və ya onun qohum-qardaşı ilə düşmənçilik edən) kimsəni (qiyamətdə) şiddətli əzab gözləyir!**

Ey ağıl sahibləri, bu qisas (qisas hökmü) sizin üçün həyat deməkdir. Ola bilsin ki, (bununla) pis əməldən (qətldən) çəkinəsiniz". *(Bəqərə surəsi, 178-179-cu ayələr)*

Ümumi olaraq İslam hüquq məktəbində ölüm cəzası tətbiq olunur. Edam cəzaları ümumi olaraq ictimai fəsad (məsələn, küfrün yayılması) və "haqqun nas", yəni insan haqqının tapdanmasına görə tətbiq olunur. İslam hüququ ümumi olaraq 3 halda edam cəzasını tətbiq edir. Müsəlmanın - insanın canına, malına və namusuna təcavüz zamanı məhkəmə qurulur və şəri hakim (İslam hüququ bilicisi) zəruri şərtlər (cinayəti sübut edən faktlar, təsdiq edən şahidlər, 4 şahid tələb olunur - K,) yerində olarsa ölüm hökmü cəzası verir. Lakin bu zaman da qarşı tərəfə günahkarı əfv etmək təklif olunur - əgər hüquq imkan verirsə. Yəni məsələn, iki nəfər arasında mübahisə nəticəsində biri o birini qəsdən qətlə yetiribsə, qatilin cəzası ölüm olur. Lakin məhkəmə Quran ayəsinə əsasən ölünün yaxınlarına qatili əfv etmələrini təklif edir. Son aylarda İranda bu cür iki hadisə olub. Qətlə yetirilmiş şəxsin valideynləri qatili son anda, dar ağacında əfv ediblər.

**"Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə, hər kəs** *(pislik edəni)* **bağışlasa və** *(onunla)* **barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sevməz!"** *(Şura surəsi, 40-cı ayə)*

Bundan başqa, evli kişi və qadının zina etməsi (qeyri-qanuni cinsi əlaqə) İslam hüququnda edam cəzasına səbəb ola bilər. Ancaq bunun üçün 4 adil şahid olmalıdır ki, məhkəmədə iddianı təsdiq etsinlər. Eyni zamanda quldurluq, yəni müsəlmanın malına təcavüz edərək qarət etmək, yağmalamaq İslam hüququnda edam cəzası nəzərdə tutur.

Ancaq bütün bu cinayətlərə hökm İslam məhkəməsi tərəfindən verilir. Məhkəmədə İslam hüququ bilicisi (şəri hakim - qazı) məhkəməyə rəhbərlik edir, tərəfləri dinləyir və ən mühümü şəriətin tələb etdiyi şərtlərin təmin olunmasına nəzarət edir. Yəni şahidlər ədalətli olmalıdır, cinayət ölüm hökmünü vacib edəcək dəlil və sübutlarla təsdiqlənməlidir. Əgər bütün bunlar olsa, İslam hüququ yalnız cinayəti törədənə edam cəzası tətbiq edir. Əgər cinayəti bir neçə nəfər törədibsə, qisas hüququ hər birinə tətbiq olunur. Lakin bu halda da hər bir şübhəli barəsində dəlillər yerində olmalıdır. Bundan başqa, İslam hüququ qətli yalnız bilərəkdən törədilən qətlə tətbiq edir, qəsdən olmayan cinayətlərdə edam cəzası tətbiq olunmaz. Əgər hətta bütün ittihamlar təsdiq olunsa belə, ölən adamın ailəsi qisasdan imtina etsə, o zaman məhkəmə edam hökmü verə bilməz. O halda diə, yəni cərimə ödənilir.

KƏNAN

YENİ MÜSAVAT
N 122 (6150) 6 iyun 2015



# “Haqlı olduğumuza inandırana qədər çalışmalıyıq”

## Rüfət Muradlı: “Dünyaya parçalanmış, bölünmüş xalq olduğumuzu təkcə sənədlərlə deyil, əməllərimiz, davranışımızla da göstərək”

**Məlum olduğu kimi, Ümid Partiyasının ictimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlı mayın 24-dən 31-dək Stokholmda işgüzar səfərdə olmuşdur. Rüfət Muradlı ilə səfər təəssüratlarını bölüşmək istədik.**

***- Rüfət bəy, vətənə xoş gəldiniz. Mətbuatdan izlədiyimiz qədər rəngarəng səfər proqramınız olub. Öncə səfərin məqsədi haqda deyərdiniz.***

- Təşəkkür edirəm. Gerçəkdən rəngarəng, zəngin proqrama malik, eyni zamanda məhsuldar bir səfər oldu. Səfəri 2002-ci ildə Stokholmda təsis edilən və tanınmış Güneyli siyasi fəal Abdulla Əmir Haşimi Cavanşirin rəhbərlik etdiyi İsveç Azərbaycan Qarabağ Cəmiyyəti təşkil etmişdi. Cəmiyyətin təşəbbüsü ilə İsveçdə “28 May Həftəsi” adı altında gerçəkləşən bu səfər ərzində İsveç Xarici İşlər Nazirliyində, İsveç Parlamenti-Rikstaqda səmərəli görüşlərimiz oldu. Mayın 26-dan 29-dək XİN Şərqi Avropa Departamenti rəhbərliyi ilə, Parlamentin Yaşıllar fraksiyasında, XİN Türkiyə Departamentində və sosial-demokratlarla görüşlərimiz oldu. Görüşlərdə bizi İsveç Azərbaycan Qarabağ Cəmiyyətinin təmsilçiləri Abdulla Əmir Haşimi, Rza Qaraçaylı və Ayda Əmir Haşimi də müşayiət edirdilər. Ayın 27-də isə Qarabağ Cəmiyyətinin təşkil etdiyi “ 28 May dəyərləri” adli konfransda tədqiqatçı alimimiz Yasəmən Qaraqoyunlu ilə birgə məruzəçi kimi çıxışlar etdik və soydaşlarımızı düşündürən sualları cavablandırdıq. Soydaşlarımızla, İsveçdəki Azərbaycan cəmiyyətlərilə də ayrı-ayrılıqda görüşlərimiz oldu. “28 May həftəsi” tədbirləri çərçivəsində ölkəmizin İsveçdəki səfirliyində bayram mərasiminə, habelə yenicə təsis olunmuş İsveç Azərbaycan Əməkdaşlıq Birliyi( SWAZCO) tərəfindən keçirilən “28 May” seminarına da qatıldıq.

***- Görüşlər haqda daha ətraflı məlumat verərdiniz.***

- Xarici İşlər Nazirliyində və Rikstaqdakı görüşlərin predmeti əsasən Azərbaycan ərazilərinin işğalı, bir milyondan artıq qaçqınımızın üzləşdiyi sorunlar, Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsi, habelə ermənilərin 20-ci əsrdə Quzey və Güney Azərbaycanda həyata keçirdiyi soyqırımlar ətrafında idi. Şübhəsiz ölkəmizdəki demokratiyanın durumu ilə də maraqlanırdılar.

***- İsveç cəmiyyətində Azərbaycan haqda ümumi düşüncə necədir?***

- Öncə nəzərinizə çatdırım ki, İsveçdə 35 minə yaxın Azərbaycan türkü yaşayır. Onların əksəriyyəti 80-ci illərdə Güney Azərbaycandan mühacirət edənlərdir. İsveç inteqrasiya üçün əlverişli bir ölkədir. Soydaşlarımızın çoxu bu fürsətdən səmərəli faydalana biliblər. Amma təəssüflə bildirməliyəm ki, bizdə qonşularımıza nisbətdə lobbiləşməyə və təşkilatlanmağa maraq çox-çox sonralar ortaya çıxdığından bu sahədə qüsurlarımız az deyil. Milli düşüncəli soydaşlarımız Azərbaycan həqiqətlərini İsveç toplumuna çatdırmaq üçün bacardıqları qədər çalışırlar. Bu məsələdə məni fərəhləndirən hallardan biri vətənimizin Quzeyi və Güneyindən olan soydaşlarımızı bir arada görmək idi. Azərbaycanın İsveçdəki səfirliyinin son dönəmdə bu yöndə fəaliyyətini də təqdir etmək lazımdır. Soydaşlarımızın dediklərinə görə bir neçə il öncəyə qədər səfirliyin qapısı özəlliklə Güney Azərbaycandan olan soydaşlarımızın üzünə bağlı imiş. Hər halda, qürbətdə də parçalanmış vətəni, milləti bütövləşdirmək əsas qayəmiz olmalıdır. Əgər birgə fəaliyyət imkanımız olacaqsa, İsveç toplumuna da təsir imkanlarımız artacaq. Unutmayaq ki, İsveç Parlamentində erməni mənşəli 6 millət vəkili var.











***- Yeri gəlmişkən, bir az da İsveçin siyasi sistemi haqda danışardınız.***

- Bildiyiniz kimi, İsveç unitar quruluşa malik parlamentli monarxiyadır. Əhalinin 82 faizi isveçlidir. Mənim düşüncəmə görə, sənayeləşmənin ən yüksək həddindədirlər. Dövlət və insan faktorları tam tənzimlənir. Əhalinin rifah səviyyəsinə, qanunların tətbiq olunmasına görə dünyanın öndə gələn ölkələrindən biridir. Ölkədə kralın səlahiyyətləri simvolik sayıla bilər. Hökumətin başında isə parlament seçkilərində zəfər çalan partiyanın təmsilçisi olan baş nazir dayanır. Hazırda parlamentdə 8 partiyanı təmsil edən 349 millət vəkili var. Son parlament seçkilərində sosial demokratlar birincilik qazansalar da ,yetəri qədər parlament yerinə malik olmadıqlarına görə hökuməti Yaşıllar Partiyası ilə koalisiya əsasında qurublar. Hazırda hökumətə sosial demokrat Stefan Lövhe başçılıq edir. Və xatırladım ki, cənab Lövfenin aprelin 24-də İrəvandakı mərasimə qatılmaması və Xarici İşlər Nazirliyi sözçüsünün İsveç Parlamentinin qondarma soyqırımı qərarına yenidən baxılması zərurəti haqda açıqlaması İsveçdəki erməni lobbisini bərk qəzəbləndirmişdi. Bizim bəzi görüşlərimizdə İsveç təmsilçilərinin bu təsirin fobyasını yaşadıqlarını müşahidə etmək olurdu.

***- Ümumi baxanda səfərinizi uğurlu saymaq olarmı?***

- Məncə, olduqca uğurlu və məhsuldar oldu. Ümumiyyətlə, xaricdə yaşayan soydaşlarımızla bağlı daha geniş fəaliyyətlərə ehtiyac var. Onların yaşadıqları toplumda söz sahibi olmaları üçün Bakıdan ən azı siyasi və media dəstəyi göstərməyə borcluyuq. Bu kimi səfərlərin də onlar üçün özəl stimul yaradacağına əminəm. Düşünürəm ki. İsveç siyasiləri ilə görüşlərdə də Azərbaycan həqiqətlərinin tanıtdırılması yönündə onlar üçün yeni fakt və fikirlər ortaya qoya bildik. Getməliyik, görüşməliyik və haqlı olduğumuza inandırana qədər durmadan çalışmalıyıq. Bu mənada İsveç Azərbaycan Qarabağ Cəmiyyətinin fəaliyyəti təqdir olunmalıdır. Baxın, vətən belə bütövləşir. Bir təbrizli uzaq İsveçdə “Qarabağ” Cəmiyyəti təşkil edirsə, bir bakılı da dünyaya Güney Azərbaycanın sorunlarını çatdırmaqda görəvlidir. Yeter ki, dünyaya parçalanmış, bölünmüş xalq olduğumuzu təkcə sənədlərlə deyil, əməllərimiz, davranışımızla da göstərək.



# Çinli rüşvətxorlar

Zamin HACI
zaminhaci@gmail.com

**"Siz hansı burjuylardansa insanları sevməyi tələb edirsiniz. Əzizim, dünya yaranandan bəri hər şey qarına tabedir, başqa cür olmayıb və olmayacaq da. Əsas məsələ isə budur ki, siz burjuylara tüpürürsünüz, çünki onlardan xeyli yüksəkdəsiniz. Baş məqalə dili ilə desək, tərəqqiyə təkan verdiyinizi dərk etmək və bununla qürurlanmaq yəni sizə kifayət etmir? Lənət şeytana!" (Aleksandr Kuprin, "İnsan qənimi" povestindən)**

Mətbuat Şurasının sədri, hörmətli Əflatun müəllimin məktublaşma janrına aludə olmasını həmçinin hörmətli oxucularımız artıq bilirlər. Keçən nömrələrimizdə Əflatun müəllimin Abid Şərifova və yanan binaya açıq məktubları haqda xəbərlər vermişdim. Bu sayımız üçün isə Amaşovun facebook sosial şəbəkəsinin müdiri Mark Zukerberqə məktubunu əldə etmişik. Əflatun müəllim yazır: "Hörmətli Mark müəllim, əvvəla salam, salamdan sonra ərz edim ki, biz sağ-salamatıq, penoplastları sökmüşük, sizin də sağ və salamat olmağınızı o bir Allahdan arzu edirik. İndicə soruşdum, Müşfiq Ələsgərov da bu ülvi arzuya qoşulur. Ölkəmiz dayanmadan inkişaf edir, çoxlu sayda yeraltı keçidlər açılmışdır, mən özüm hər gün yeraltı keçiddən keçirəm, hətta elə xoşuma gəlir ki, bəzən orda gecələyirəm. Dünən isə müasir fəvvarənin yanında yatıb qalmışam. Nə başını ağrıdım, istəsən sənə jurnalistlərin binasında ev verə bilərik, Rəşad Məcid imkan versə növbə sənindir. Ancaq gərək facebookdakı "Ümummilli paz" adlı səhifəni bağlayasan, çünki orda xalqımızın siyasi liderləri haqda pis sözlər yazırlar. Özün də baxıram, yaxşı oğlansan, lazım gəlsə, tvitteri reket şəbəkə elan eləyim, qara siyahıya salım, hansı rayona getsən icra hakimləri ancaq sənə dananın ağ ətindən bir cəmdək versinlər, ye, iç, adam balası kimi yaşa, rəngin-ruhun özünə gəlsin, yoxsa sapsarı urus balasına oxşayırsan. Nə düşmüsən bu internetin canına? Hətta Vüqar müəllimlə danışım, sənə KİVDF fondundan yaxşı motal pendiri versin". Məktub çox uzundur, ardı qalsın başqa vaxta.

Çin Xalq Respublikasında korrupsiya ilə mübarizə tədbirləri haqda maraqlı bir xəbər oxumuşam, onu oxucularımızla bölüşmək istərdim. Demək, Çində rüşvət alan məmurlara, dövlət qulluqçularına qarşı ağır cəzalar var, onları hətta güllələyib öldürə bilirlər. Ölkənin bəzi əyalətlərində isə belə praktika tətbiq edilir: korrupsiya üstündə məhkum edilən məmurların saxlandığı zindanlara... ekskursiyalar düzəldilir. Sizcə, kimdən ötrü? Yox, turizm məqsədilə deyil. Məmurlar üçündür! İldə bir neçə dəfə dövlət qulluqçularını arvadları ilə birgə (!) doldururlar avtobuslara, aparırlar türmədəki korrupsioner məmurlara baxdırırlar. Təcrübəyə görə, bu üsul rüşvətxorluğa qarşı mübarizədə yaxşı effekt verirmiş.

Fikir verdinizsə, mən bayaq "onların arvadları" sözlərindən sonra nida işarəsi qoydum. Məni heyrətə gətirən çinlilərin bu sahədə müdrikliyi oldu. Onlar gözəl anlayırlar ki, məmuru rüşvətxorluğa məcbur edənlərdən birincisi elə onun arvadıdır. O arvadlar ki, bizim ölkədə də bu cür cinayətə sövq etmə işində ad qazanmışlar. Səhərdən-axşama kimi məmur ərlərini dümsükləyirlər, "odey, Mamedin arvadı şuba geydi, Səmədin məşuqəsi villada yaşayır, mən kimin qızından əskiyəm" dırıltısı ilə onların boş başında drel oyuğu açırlar. Sonra məmurun boş başındakı o deşikdən içəri hava dolur, adam olur lap yelbeyin. Əgər bu tip cinayətlərə ərdən başqa oğulun, qızın, gəlinin, yeznə və sairə ailə üzvlərinin də sövq edildiyini nəzərə alsaq, Azərbaycan qadınlarının bəziləri (əvvəl "bir çoxu" yazmışdım, əlim gəlmədi, pozdum) de-fakto banda başçısıdır. Nəsə, bu uzun mövzudur, bu da qalsın ayrı vaxta. Sadəcə, çinlilərin müdrikliyinə heyranlığımı burda çatdırmaq istədim.

# Bakı beynəlxalq birliyin hücumları qarşılığında nə edəcək?

**Birinci Avropa Oyunlarına sayılı günlər qaldığı bir ərəfədə yarışların boykot edilməsi ilə bağlı çağırışlar və bəyanatlar səslənməkdə davam edir. Oyunların açılışına 20-dən artıq dövlət və hökumət başçısının qatılacağı bildirilsə də, hələlik konkret adlar açıqlanmır. Azərbaycanda demokratik durum və azadlıqlarla bağlı vəziyyətə diqqət çəkən beynəlxalq qurumlar isə Bakıya təzyiqlərini davam etdirmək istiqamətində fərqli metodlardan istifadə edir.**




"İyunun 12-də Azərbaycan paytaxtı Bakıda ilk Avropa Oyunları start götürəcək. 50 ölkədən 6 mindən çox atlet medal uğrunda yarışacaq. Ümid edirik ki, onlar bu ölkədə insan haqları müdafiəçilərinə qarşı təzyiqlərin dayandırılması üçün də ayağa qalxacaqlar". Bunu BMT-nin insan haqları müdafiəçiləri üzrə xüsusi məruzəçisi Miçel Forst, ATƏT-in media azadlığı üzrə təmsilçisi Dunya Mijatoviç və Avropa Şurasının insan haqları komissarı Nils Mujnieks yazıb.

Bundan əvvəl Beynəlxalq Araşdırmaçı Jurnalistlər Azərbaycan hakimiyyətini Avropa Oyunlarınadək həbsdəki jurnalistləri azad etməyə çağırmışdı. Həmçinin Beynəlxalq Əfv Təşkilatının analoji çağırışı yayılmışdı. Yerli hüquq müdafiəçiləri isə 15 iyunda əfv fərmanının imzalanacağına ümid etsələr də, hələ ki bu barədə konkret məlumatın yalnız prezidentdə olduğunu deməyi də unutmurlar. Ancaq hesab olunur ki, ölkəmizdə keçiriləcək mötəbər yarış ərəfəsində əfv verməklə hakimiyyət həm Azərbaycanın əleyhinə olan qüvvələri neytrallaşdırmış olar, həm də ölkəmizin müsbət imicinə hesablanmış addım atar.

Düzdür, hakimiyyət onunla təzyiq dilində danışanların rəyini nəzərə almadığını ötən illərdə dəfələrlə sübut edib. Ona görə də sərt ritorika şəraitində hansısa addım o qədər də gözlənilən deyil. Ancaq bu situasiya da ölkəmizə qarşı qara piar kampaniyasının davam etməsinə zəmin yaradır.

"Avropa Şurasının insan haqları komissarı Nils Muznieks, BMT-nin məruzəçisi Mişel Forst və ATƏT-in media azadlığı üzrə nümayəndəsi Dunja Mijatoviç təmsil etdikləri təşkilatların statusundan sui-istifadə edərək, Azərbaycana qarşı Avropa Oyunları ərəfəsində bəzi dairələr tərəfindən sifarişli əsasda aparılan qarayaxma kampaniyasının tərkib elementi kimi fəaliyyət göstərirlər". Bunu Azərbaycan **Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** Nils Muzinieks, Mişel Forst və Dunja Mijatoviçin "Opendemocracy" internet portalında dərc edilmiş məqaləsini şərh edərkən deyib.



**Aydın Mirzəzadə:**
"Azərbaycan üzərində prokuror fəaliyyəti həyata keçirmək cəhdlərini rəsmi Bakı rədd edir"



**Arzu Nağıyev:**
"Çox təəssüf ki, bu proseslər məhz Avropa Oyunlarına sayılı günlər qalmış baş verir"

**Deputat İqbal Ağazadə güman edir ki, Avropa Oyunlarının keçirilməsindən hökumətin qazancı yoxdur:** "Ancaq beynəlxalq təşkilatların, Avropa strukturlarının təzyiqləri var. Çox təəssüf ki, müxalifətin də bir hissəsi bu təzyiqlərə qoşulub. Biz nə istəyirik? İstəyirik ki, burda Avropa Oyunları keçirilməsin, Avropa ilə təmaslarımız, Avropa siyasi coğrafiyasında olmağımızın hamısından geri durulsun? Azərbaycana xeyli jurnalist gəlir, ölkəmiz haqqında təsəvvürləri olur, Azərbaycandan, insan haqlarından, demokratiyanın vəziyyətindən yazırlar, əyər-əskiklikləri göstərirlər. Yaxşı, bunlar olmasa, nə edəcəyik, harda yazacağıq, kim Azərbaycana bu qədər maraq göstərəcək? Çalışmaq lazımdır ki, Azərbaycan Avropa ilə daha sıx təmasda olsun. Avropa Oyunlarını insan haqlarına qatmaq, yox, buna görə olimpiadanı boykot edin-filan, bu, heç nəyi dəyişməyəcək, bizə xeyir verməyəcək. Əksinə, çalışmaq lazımdır ki, Avropa strukturları tərəfindən elmi konfranslar, oyunlar, görüşlər, beynəlxalq tədbirlər daha çox keçirilsin ki, biz daha çox Avropaya inteqrasiya edək, Avropanın bir parçası ola bilək. Bizi Avropadan heç kəs kənarda qoymasın. Biz Avropadan ayrılsaq, Avropadan təcrid olunsaq, bizi Avropadan çıxartsalar, vəziyyətimiz çox çətin olacaq. Həm beynəlxalq aləmdə çətin olacaq, ayrılmış Avropadan fərqli bir Azərbaycan olacaq, onda Rusiyanın təzyiqlərinə tab gətirməyəcəyik, həm də daxildə vəziyyət dəyişəcək".

**Deputat xatırlatdı ki, iqtidar oyunlara görə hansısa addım atmır:** "Oyun olmayanda hər şey yaxşı idi, indi oyuna görə olub? Yox, bu, yanlış yanaşmadır. Həm də bir məsələyə diqqət etmək lazımdır. Bundan Azərbaycanın dövləti, xalqı, milli maraqları xeyir götürür. Mən Avropa Oyunlarını bu cür görürəm. Götürdüyümüz xeyir nədir: biz Avropa coğrafiyasındayıq, Avropa insanı ilə təmasdayıq, Avropanın bir hissəsi olaraq dəyərləri əxz etməyə məcburuq. Fərz edək ki, bir xalq imperialist dövlətin tərkibində azadlıq uğrunda mübarizə aparır, o imperialist dövlət onun 100 nəfər siyasi insanını həbsxanaya atır. Məsələn, Çeçenistanda qırğın törədilirdi. Sən gedib bir məktəbi tutub da, "sən mənim adamlarımı tutubsan, buraxmasan, məktəbliləri öldürəcəyəm" demək çox yanlış bir şeydir. İndi həbsdə 100 dustağımız var, çox ləyaqətli adamlardır, mübarizdir, amma onları buraxmırlar deyə, Avropa coğrafiyasından imtinamı etməliyik? Azərbaycan Avropadan çəkilən an alternativ seçimimiz Rusiyadır. Mən Rusiyanın yanına gedilməsinin tərəfdarı deyiləm".

**YAP-çı deputat Aydın Mirzəzadə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan onunla dostluğa, birgə uğurlu layihələri həyata keçirməyə yönəlik istənilən çağırışa müsbət yanaşır:** "Demokratik ölkə olaraq, biz dünyaya açığıq və dünyanın əldə etdiyi nə uğur varsa, hamısının Azərbaycanda olmasına dövlət və cəmiyyət daim çalışır. Ancaq bununla belə, bu gün Azərbaycanı gözü götürməyən, Azərbaycanda həyata keçirmək istədiyi hansısa bir çirkin fəaliyyət alınmadıqda Azərbaycana qara yaxmaq istəyən müəyyən qüvvələr var. Bunlar erməni diaspor təşkilatları, Azərbaycanı özünün forpostu görmək istəyən, amma alınmayan qüvvələrdir. Bunlar Azərbaycanın təbii sərvətlərini ələ keçirməyə çalışan, amma cəhdləri uğursuz alınan müəyyən mərkəzlərdir. İşləri alınmadıqda isə Azərbaycan əleyhinə müəyyən kampaniyalar aparmağa başlayırlar. Azərbaycan onların ölkəmizə qarşı çağırışlarını araşdırdıqda bunun arxasında yuxarıda sadaladığım cəhdlərin olduğunu görür. Ona görə də o çağırışlar ki, Azərbaycanın dövlət müstəqilliyinin əleyhinədir, müstəqil daxili və xarici siyasət yeritmək hüququnu onun əlindən alır, Azərbaycan üzərində bir prokuror fəaliyyəti həyata keçirmək cəhdi olur, rəsmi Bakı bütün bunların hamısını rədd edir və hesab edir ki, bu cür çağırışlar Azərbaycanın daxili işlərinə qarışmaqdır, hər hansı konstruktivlikdən söhbət gedə bilməz".

**YAP təmsilçisi 15 iyunda əfv olub-olmayacağından xəbərsiz olduğunu da vurğuladı:** "Amma bununla belə, zaman-zaman dövlət başçısı tərəfindən yüzlərlə insanın ailəsi və yaxınları sevindirilib, əfv verilib".

**Politoloq Arzu Nağıyev isə diplomat Arif Məmmədovun facebook statusuna diqqət çəkir:** "Əgər Azərbaycan adından kiməsə danışmaq şərəfi nəsib olubsa və bunu müvafiq əmr və sərəncamlarla tənzimləyib vəzifə borcuna çeviriblərsə, buna layiq də hərəkət eləmək lazımdır. Təəssüf ki, öz xidməti mövqeyindən, əlaqələrindən istifadə edən, öz yerində olmayan bir sıra insanlar bunu başa düşmək istəmirlər və son aqibətləri də göz qabağındadır. Düzdür, bu məsələlərdə siyasi divident qazanmaq istəyində bulunanlar da var. Lakin bu da vaxtı gələndə özünü büruzə verəcək. Çox təəssüf ki, bu proseslər məhz Avropa Oyunlarına sayılı günlər qalmış baş verir".

**E.PAŞASOY**